# Biləsuvar: 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr





**Biləsuvar rayon Heydər Əliyev Mərkəzində 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi. Hesabat iclasında Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 5-ci ərazi sektorunun müdiri Dəyanət Abdullayev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri, məktəb direktorları, rayonun iş adamları, ağsaqqallar, gənclər və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdi.**

İştirakçılar ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə gül dəstələri qoydular.

Tədbirdən əvvəl iştirakçılar tərəfindən rayonun sosial-iqtisadi, mədəni və aqrar sahədəki inkişafını əks etdirən sərgiyə baxış keçirildi.

Tədbirdə Biləsuvar rayonunda 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrlə bağlı geniş məruzə ilə çıxış edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev ötən 2019-cu ildə rayonda bütün sahələr üzrə görülən işlər barədə ətraflı məlumat verdi.

M.Quliyev bildirdi ki, 2019-cu ildə rayon üzrə ümumi daxili məhsul istehsalı 425 milyon 400 min manat təşkil etmişdir. Bundan 100 milyon 273 min manatı sənayenin, 128 milyon 185 min manatı kənd təsərrüfatının,102 milyon 282 min manatı tikintinin, 90 milyon 680 min manatı isə ticarət xidmətlərinin payına düşüb.

2019-cu ildə Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi (81 km) - Biləsuvar avtomobil yolunun yenidən qurulması işləri başa çatdırılmışdır. Bu yolda yolun hərəkət zolağı genişləndirilməklə 2 qat asfalt-beton örtük qoyulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2019-cu il tarixli Sərəncamına əsasən Biləsuvar-Bəhrəmtəpə (56-cı km)-Çaylı-Bağbanlar-Aranlı-Zəhmətabad avtomobil yolunun təmiri məqsədi ilə Azərbaycan Respublikasının dövlət büdcəsindən 5,6 milyon manat vəsait ayrılmışdır. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş uzunluğu 13,2 km olan bu yolda asfalt-beton örtüyün tikintisi başa çatdırılmışdır. Şəhər ərazisində kanalizasiya çəkilişi zamanı yararsız vəziyyətə düşmüş 7,0 km yol yenidən asfaltlaşdırılmış, 16 küçədə 10,5 km uzunluğunda çınqıl-qum qarışığı ilə əsaslı təmir işləri aparılmışdır. Uzunluğu 60,0 km Bəhrəmtəpə-Biləsuvar avtomobil yolunun yenidən qurulması ilə bağlı tikinti işlərinə başlanılmışdır. Xırmandalı kəndində 40 yerlik uşaq bağçası, şəhərin Heydər Əliyev küçəsində 4 mərtəbəli, 48 mənzilli yaşayış binası tikilərək istifadəyə verilmişdir. Daxili imkanlar hesabına rayonun Əliabad kəndində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ev-muzeyi tikilmiş, ərazinin abadlaşdırılması işləri başa çatdırılmışdır. Ötən il 2016-cı ilin Aprel döyüşlərində şəhid olmuş biləsuvarlı hərbiçilərin şərəfinə ucaldılmış "Zəfərə aparan yol"- "Lələtəpə" xatirə abidəsinin açılışı ilə əlamətdar olmuşdur.

2019-cu ildə həmçinin, rayonun Əliabad kəndində Heydər Əliyev Fondu tərəfindən 40 yerlik körpələr evi-uşaq bağçasının tikintisinə başlanılmışdır.



Əhalinin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə 2019-cu ildə rayonda 18,5 km SİP kabeli çəkilmiş, 61 ədəd transformator cari, 14 ədəd transformator isə əsaslı təmir olunmuşdur. Səmədabad kəndində gücü 60 meqavat olan elektrik yarımstansiyası tikilərək istifadəyə verilmişdir. Əhalinin təbii qaza olan tələbatının yaxşılaşdırılması məqsədi ilə şəhər ərazisində və kəndlərin genişlənən hissələrində qaz çəkilişi işləri aparılmış, mövcud olan 26 yaşayış məntəqəsinin əsas hissələri təbii qazla tam təmin olunmuşdur. Xırmandalı kəndində yeni yaşayış massivində 340 abunəçisi olan məhəllənin qaz xəttinin açılışı olmuşdur.

2019-cu ildə rayonda vətəndaşların öz vəsaiti hesabına ümumi dəyəri 4 milyon 657 min manat olan 176 fərdi yaşayış evi tikilmişdir.

Hazırda rayonda illik istehsal gücü 15 min ton olan "MKT İK" MMC, istehsal gücü 10 min ton olan "Azərpambıq" MMC olmaqla iki emal müəssisəsi və "P-Agro" MMC fəaliyyət göstərir. "P-Agro" MMC üçün pambıq emalı zavodunun tikintisi məqsədi ilə 6 ha torpaq sahəsi ayrılmış, gündəlik istehsal gücü 80-120 ton olan pambıq emalı zavodunun tikinti işlərinə yaxın günlərdə başlanılacaqdır. Ötən il rayonumuzda 10257,7 hektarda pambıq əkilmişdir ki, bunun da 4183.6 hektarı "MKT İK" MMC, 4067.1 hektarı "Azərpambıq" MMC, 2007 hektarı "P-Aqro" MMC tərəfindən həyata keçirilmişdir. Sahələrdən 29,9 sentner olmaqla 30706,58 ton məhsul tədarük edilmişdir. Pambığın əkilməsi, becərilməsi və yığılması işlərinə 11 mindən çox işçi qüvvəsi cəlb edilmiş, onların ailə büdcələrinə 23 milyon 29 min 500 manat vəsait daxil olmuşdur.

Aqroparkların yaradılması istiqamətində aparılan işlər aqrar sahənin inkişafında öz əhəmiyyətini göstərməkdədir. Hazırda Biləsuvar rayonunda fəaliyyət göstərən "Yaşıl Ada", "Green farms" və "RULEX" aqroparkları bunun bariz nümunəsidir. Aqropark "RULEX" MMC-nin Biləsuvar təsərrüfat sahəsində əkinçiliklə yanaşı, 500 başlıq heyvandarlıq kompleksinin yaradılması planlaşdırılır.

"Muğan düyü" MMC-nin Biləsuvar təsərrüfat sahəsi tərəfindən 2019-cu ildə 725 ha sahədə çəltik əkilmiş və 5 ədəd çəltik anbarının tikintisi üçün torpaq sahəsi ayrılmışdır.

Ötən il rayon üzrə 13738 hektardan 43932 ton buğda, 16456 hektardan isə 50290 ton arpa məhsulu toplanılmışdır. 2019-cu ildə payızlıq dənli bitkilər üzrə orta məhsuldarlıq 31,2 sentner olmuş, bu da əvvəlki ilin müvafiq göstəriciləri ilə müqayisədə 3,3 sentner çox olmuşdur.

Son illər rayonumuzda yeni məktəb binalarının tikintisi diqqət mərkəzində saxlanılmış, rayonun ümumtəhsil müəssisələrinin müasir informasiya-kommunukasiya texnologiyaları ilə təminatı yaxşılaşdırılmış, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin 2018-ci ildə rayonumuza tarixi səfərindən sonra imzaladığı Sərəncama əsasən Biləsuvar şəhərində 1176 şagird yerlik Nizami adına şəhər 1 saylı tam orta məktəbin binası inşa olunaraq istifadəyə verilmişdir. Dörd mərtəbəli, müasir memarlıq üslubunda tikilmiş bu təhsil ocağı ən müasir avadanlıqlarla təmin olunmuşdur.

Ötən il həm də ölkə Prezidentinin digər Sərəncamı ilə Muğan kəndində 80 yerlik "Modul" tipli məktəbin tikintisi başa çatdırılaraq müəllim və şagirdlərin istifadəsinə verilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun rayonumuzda ötən il əhalinin pulsuz tibbi müayinədən keçirilməsi mütəşəkkil təşkil olunmuş, 62310 nəfər əhali tibbi müayinədən keçirilərək səhhətində problem aşkar olunan insanlar ambulator və stasionar müalicəyə cəlb edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2020-ci il respublikamızda "Könüllülər ili" elan edilmişdir. Ölkəmizdə həyata keçirilən islahatların müasir çağırışlara cavab verməsi və proseslərdə dinamizmə nail olmaqdan ötrü son illər könüllülük bir hərəkata çevrilmişdir. Odur ki, cari ilin məhz "Könüllülər ili" olması ölkəmizdə həyata keçirilən islahatların davamlılığına öz töhfəsini verəcəkdir. Biləsuvar rayonunda könüllülük hərəkatı geniş vüsət almış, bu məqsədlə rayon icra hakimiyyətinin geniş tədbirlər planı hazırlanmışdır.

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev çıxışının sonunda rayonda bundan sonra da abadlıq və yenidənqurma işlərinin davam etdiriləcəyini, yeni sosial layihələrin həyata keçiriləcəyini, rayonun infrastrukturun yenilənməsinin daim diqqət mərkəzində olacağını, kənd təsərrüfatının, xüsusilə pambıqçılığın inkişaf etdirilməsi, yeni aqroparkların salınması, əhalinin məşğulluğunun təmin edilməsi və yeni-yeni iş yerlərinin yaradılmasının 2020-ci ildə də əsas vəzifələrdən olacağını bildirdi.

Hesabat iclasında çıxış edənlər fəaliyyət göstərdikləri sahələr üzrə görülmüş işlər barədə ətraflı məlumat verdilər və qarşıda duran vəzifələr müzakirə olundu.

Hesabat yığıncağında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 5-ci ərazi sektorunun müdiri Dəyanət Abdullayev çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda ötən 2019-cu ildə görülən işlər barədə ətraflı məlumat verdi, ölkə başçısının tapşırıq və tövsiyələrinə uyğun ölkəmizin inkişafı ilə bağlı 2020-ci ildə qarşıya qoyulan hədəfləri açıqladı.

**Ərəstun ABDULOV,**
**"Respublika".**